# *Müsafirin cib kitabı*

***Toplayıb tərcümə edən:***
*Əlixan Musayev*

***Ixtisas redaktoru:***
*Mübariz Qarayev*

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

**Mərhəmətli, Rəhmli Allahın adı ilə!**

# *Ön söz*

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət verərsə, o, doğru yolda olar, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**"Ey iman gətirənlər! Allahdan layiqincə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"**[1]

[1] "Ali-İmran" surəsi, 102-ci ayə.

**“Ey insanlar! Sizi tək bir şəxsdən xəlq edən, ondan da zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın** ***törədib yer üzünə*** **yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən** ***cürbəcür şeylər*** **istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən** ***çəkinin*****! Həqiqətən, Allah sizə nəzarət edəndir!”**[1]

**“Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** ***Əgər belə etsəniz*** **Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar”**.[2]

Əziz müsəlman bacı və qardaşlar!

Əlinizdə tutduğunuz bu həcmcə kiçik, lakin kifayət qədər əhəmiyyətli bir əsər olan “Müsafirin cib kitabı” adlı bu kitabçanı tərtib edib başa çatdırdıqdan sonra ona yazdığımız “Ön söz”də əsərin özəl

---

[1] “ən-Nisa” surəsi, 1.

[2] “əl-Əhzab” surəsi, 70-71.

məziyyətlərindən bəzi xüsusiyyətləri nəzərinizə çatdırmağı özümüzə borc bildik.

Belə ki, kitabçada bir sıra mötəbər mənbələrdən – İslam və dünya miqyasında tanınmış məxəzlərdən istifadə edilmişdir. İlk növbədə müqəddəs Quran ayələri və Peyğəmbərimizin (*ona Allahın salavatı və salamı olsun / sallallahu aleyhi və səlləm* – ﷺ) dünya şöhrətli İslam alimlərinin – əl-Buxari, Muslim, Əbu Davud, İbn Macə, İbn Həcər, ət-Tirmizi və başqa görkəmli tarixi şəxsiyyətlərin "Səhih" və "Sünən" adlı toplularında cəm edilmiş mötəbər hədislərinə istinad edilmişdir. Həmçinin Qurana və əksəriyyətcə onun ayələrini şərh edən Allah Elçisinin ﷺ hədislərinə əsaslanan alimlərin həmrəy olduqları yekdil fikirləri və gəldikləri nəticələr də kitabçada öz əksini tapmışdır.

Kitabça, müxtəlif səbəblərə görə tez-tez səfərə çıxan qardaşlarımızın xahişi nəzərə alınaraq tərtib edilmişdir. Burada,

uzaq və ya yaxın yola çıxmasından asılı olmayaraq, müsəlmana səfərə aid kifayət qədər zəruri dini-əxlaqi məziyyətli məlumat və biliklər verilir, səfərdə namaz qılınması, oruc tutulması və müsafirliyin digər xüsusiyyətləri ilə əlaqəli başqa bu kimi məsələlər barədə şəriət qaydalarından bəhs edilir.

Əsər "Ön söz", beş bölmə və "Son söz"dən ibarətdir. Bölmələr hər biri yığcam şəkildə aşağıdakı başlıqları əhatə edir: "səfər" sözünün lüğəti mənası, səfər qaydaları, səfərdə namaz və səfərdə oruc.

Göründüyü kimi, müsəlman qardaşlarımız bu kitabçadan səfərə hazırlıq görmə, çıxma və onun gedişi prosesində şəriətə uyğun olan ibadətin özəlliyi haqqında maraqlı məlumatlar əldə edə biləcəklər.

Əzəmət və mütləq Qüdrət sahibi olan Böyük Allahdan bu kiçicik kitabçamızı müsəlman bacı-qardaşlarımız üçün faydalı və bərəkətli etməsini diləyirəm!

# *"Səfər" sözünün mənası*

Səfərə çıxmaq, daimi yaşayış yerindən ayrılıb qərib bir yerə yollanmaq deməkdir. Səfər həmçinin aşkar etmək, üzə çıxarmaq mənasını da verir. Bir çox insanların əxlaqı məhz səfərdə olduqları zaman aşkara çıxır. Keçmiş zamanlarda sələflər bir şəxsin digər şəxsi təriflədiyini eşidəndə: "Dediyin adamla səfərə çıxmısanmı? Onunla bir iş görmüsənmi?"– deyə ondan soruşardılar. O yox cavabı verərdisə: "Demək, sən onu tanımırsan!"– deyərdilər. Səfərin hökmü də şəriət hökmlərinin bəzisində olduğu kimi beş qismə bölünür:

– haram sayılan səfər. Buna, haram iş görmək üçün səfərə çıxmağı misal çəkmək olar.

– bəyənilməyən səfər. Buna kişinin tək-tənha səfərə çıxmasını misal çəkmək olar.

– vacib sayılan səfər. Buna həcc ziyarətini yerinə yetirmək üçün səfərə çıxmağı misal göstərmək olar.

– bəyənilən səfər. Buna şəriətə görə bəyənilən hər hansı bir işi görmək məqsədilə səfərə çıxmağı misal çəkmək olar.

– mübah sayılan səfər. Buna da gəzinti məqsədilə səfərə çıxmağı misal göstərmək olar.

# *Səfərə çıxma qaydaları*

Səfərə çıxan hər kəs aşağıda qeyd edəcəyimiz əməllərə bacardığı qədər riayət etməlidir:

– səfərə çıxan hər bir adam özünə əməlisaleh yoldaş seçməlidir. Peyğəmbər ﷺ demişdir: "Yalnız möminlə yoldaşlıq et, yeməyini də yalnız Allahdan qorxan adam yesin!"[1]

Yenə Peyğəmbər ﷺ demişdir: "Kişi sevdiyi adamla yoldaşlıq edər!"[2]

Başqa hədisdə o ﷺ, yaxşı dostla pis dostu, ətir satanla körük basana bənzətmişdir.[3]

– həcc, ümrə və başqa bu kimi ibadətlərlə əlaqəsi olan səfərlərdə Peyğəmbərimizin ﷺ: “Əməllər niyyətlərə görədir...”

---

1 “Sünən Əbu Davud”.

2 “Səhih əl-Buxari” və “Səhih Muslim”.

3 “Səhih əl-Buxari” və “Səhih Muslim”.

hədisinə əsasən əvvəlcədən niyyət etmək vacibdir.

– səfərə getməzdən əvvəl vəsiyyət yazmaq məsləhət görülür. Peyğəmbər ﷺ demişdir: "Vəsiyyəti olan hər hansı bir müsəlmana vəsiyyəti yanında olmadıqca iki gecə keçirməsi belə caiz deyildir".[1]

– səfərə çıxmazdan əvvəl səfərlə əlaqəli şəriət hökmlərini bilmək lazımdır. Ümumiyyətlə, şəriətin qayda-qanunlarını başa düşmək böyük nemətdir. Peyğəmbər ﷺ demişdir: "Allah kimə xeyir nəsib etmək istəsə onu dində fəqih (dini başa düşən alim) edər".[2]

– müsafirin, ailəsi və yaxınları ilə vidalaşdığı zaman bu duanı etməsi bəyənilən əməllərdəndir.

(( أَسْتَوْدِعُكُمُ اللهَ الَّذِي لاَ تَضِيعُ وَدَائِعُهُ ))

---

[1] "Səhih əl-Buxari".

[2] "Səhih əl-Buxari".

[Əstəvdiukumu-llahəl-ləzi lə tədıu vədaiuhu]

“Sizi [Özünə həvalə edilmiş] əmanətləri itməyən Allaha əmanət edirəm!”[1]

– müsafirin cümə axşamı günortadan əvvəl səfərə çıxması bəyənilən əməllərdəndir. Kəb ibn Malik ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ çox vaxt səfərə cümə axşamı çıxardı.[2]

Həm də Peyğəmbər ﷺ öz ümməti üçün günortadan əvvəl olan vaxtın bərəkətli olmasını Allahdan diləyərək: “Allahım! Ümmətimin günortadan əvvəl keçirdiyi vaxtı bərəkətli et!”– demişdir.

– evdən çıxarkən bu duanı etmək müstəhəbdir:

(( بِسمِ اللهِ، تَوَكَّلْتُ عَلَى اللهِ وَلاَحَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ، اللهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ أَوْ أُزَلَّ،

---

1 “Sünən İbn Macə”.

2 “Səhih əl-Buxari”.

أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ علَيَّ ))

[Bismilləh, təvəkkəltu aləllahi və lə həulə və lə quvvətə illə billəh. Allahummə inni əuzu bikə ən ədıllə, əu udallə, əu əzillə, əu uzəllə, əu əzlimə, əu uzləmə, əu əchələ, əu yuchələ aleyyə]

“Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allaha məxsusdur! Allahım! Doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram.»[1]

– səfərə çıxdıqda aşağıdakı duanı oxumaq müstəhəbdir:

(( اللهُ أَكْبَرُ، اللهُ أَكْبَرُ، اللهُ أَكْبَرُ، ﴿ سُبْحَـٰنَ ٱلَّذِى سَخَّرَ لَنَا هَـٰذَا وَمَا كُنَّا لَهُۥ مُقْرِنِينَ وَإِنَّآ إِلَىٰ رَبِّنَا لَمُنقَلِبُونَ ﴾

[1] Əbu Davud və “Səhih ət-Tirmizi”.

اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِي سَفَرِنَا هَذَا الْبِرَّ وَالتَّقْوَى، وَمِنْ الْعَمَلِ مَا تَرْضَى، اللَّهُمَّ هَوِّنْ عَلَيْنَا سَفَرَنَا هَذَا وَاطْوِ عَنَّا بُعْدَهُ، اللَّهُمَّ أَنْتَ الصَّاحِبُ فِي السَفَرِ، وَالْخَلِيفَةُ فِي الأَهْلِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وَعْثَاءِ السَفَرِ، وَكَآبَةِ الْمَنْظَرِ، وَسُوءِ الْمُنْقَلَبِ فِي الْمَالِ وَالأَهْلِ ))

[Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər. Subhanəl-ləzi səxxara lənə həzə və mə kunnə ləhu muqrinin. Və innə ilə Rabbinə ləmunqalibun. Allahummə innə nəs'əlukə fi səfərinə həzəl-birra vət-təqva və minəl aməli mə tərda. Allahummə həvvin aleynə səfəranə həzə vatvı annə bu'dəhu. Allahummə əntəs-sahibu fis-səfəri vəl-xaliyfətu fil-əhli. Allahummə inni əuzu bikə min va'sais-səfəri və kəabətil-mənzari və suil-munqaləbi fil-mali vəl-əhli]

“Allah ən Böyükdür! Allah ən Böyükdür! Allah ən Böyükdür! **“Bunu *minmək üçün* bizə tabe edən Allah pak və**

**müqəddəsdir.** ***Yoxsa*** **bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq"**. Allahım! Bu səfərimizdə Səndən yaxşılıq, Allah qorxusu və razı qalacağın əməl diləyirik. Allahım! Bu səfərimizi bizim üçün rahat et və onun uzaqlığını bizə yaxın et. Allahım! Səfərdə dost və ailəmiz üçün hami Sənsən. Allahım! Səfərin ağırlığından, məyusedici mənzərədən, malda və ailədə xoşagəlməz dəyişiklikdən Sənə pənah aparıram".[1]

– təkbaşına səfərə çıxmaq bəyənilmir. Peyğəmbər ﷺ demişdir: "Əgər insanlar təkbaşına səfərə çıxmağın nə qədər təhlükəli olduğunu bilsəydilər, heç bir kimsə gecə vaxtı səfərə çıxmazdı".[2]

Yenə o ﷺ demişdir: "Təkbaşına səfərə çıxan kəs şeytandır[3]. Həmçinin iki nəfər

---

[1] "Səhih Muslim".

[2] "Səhih əl-Buxari".

[3] Yəni, bu adamlar şeytan kimi asilik etmişlər.

də şeytandır. Üç nəfər isə artıq camaat sayılır!”[1]

– müsafirlər öz içərilərindən birini özlərinə başçı təyin etməlidirlər. Peyğəmbər ﷺ demişdir: “Üç nəfər səfərə çıxdığı zaman özlərindən birini başçı təyin etməlidirlər!”[2]

– müsafirlər səfərdə olduqları müddətdə bir-birlərindən ayrılmamalıdırlar. Səhabələr səfərdə ikən dəstələrə bölünüb ayrı-ayrı yerlərdə qaldığını görən Peyğəmbər ﷺ demişdir: “Sizin dəstələrə bölünüb ayrı-ayrı yerlərdə qalmağınız şeytan əməlindəndir!”[3]

– mənzil başına gəlib çatan zaman aşağıdakı duanı oxumaq lazımdır:

(( أَعُوذُ بِكَلِمَاتِ اللهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ ))

---

[1] “Sünən Əbu Davud”.

[2] “Sünən Əbu Davud”.

[3] “Sünən Əbu Davud”.

[Əuzu bikəlimətilləhit-təmməti min şərri mə xaləq]

"Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!"[1]

– yüksəyə qalxanda: "Allahu əkbər!", aşağı enəndə isə: "Subhanəllah!" demək bəyənilən əməllərdəndir. Cabir ﵁ rəvayət edir ki, biz səfərdə ikən yüksəyə qalxanda: "Allahu Əkbər", aşağı enəndə isə: "Subhanəllah" deyərdik![2]

– kəndə və yaxud şəhərə daxil olarkən bu duanı oxumaq müstəhəbdir:

(( اللَّهُمَّ رَبَّ السَّمَوَاتِ السَّبْعِ وَمَا أَظْلَلْنَ، وَرَبَّ الأَرَضِينَ السَّبْعِ وَمَا أَقْلَلْنَ، وَرَبَّ الشَّيَاطِينِ وَمَا أَضْلَلْنَ، وَرَبَّ الرِّيَاحِ وَمَا ذَرَيْنَ. أَسْأَلُكَ خَيْرَ هَذِهِ الْقَرْيَةِ وَخَيْرَ أَهْلِهَا وَخَيْرَ مَا فِيهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا وَشَرِّ أَهْلِهَا وَشَرِّ مَا فِيهَا ))

---

1 "Səhih Muslim".

2 "Fəthul-Bari", İbn Həcər.

[Allahummə Rabbəs-səmavətis-səb'i və mə əzləlnə, və Rabbəl-əradınəs-səb'i və mə əqləlnə, və Rabbəş-şəyatıyni və mə ədləlnə, və Rabbər-riyəhi və mə zəraynə. Əs'əlukə xayra həzihil-qaryəti və xayra əhlihə və xayra mə fihə, və əuzu bikə min şərrihə və şərri əhlihə və şərri mə fiyhə]

“Allahım! Yeddi qat səmanın və kölgələndirdiklərinin Rəbbi! Yeddi qat yerin və daşıdıqlarının Rəbbi! Şeytanların və azdırdıqlarının Rəbbi! Küləklərin və sovurub apardıqlarının Rəbbi! Səndən bu kəndin xeyrini, onun əhalisinin xeyrini və orada olanların xeyrini diləyirəm! Onun şərindən, onun əhalisinin şərindən və orada olanların şərindən Sənə sığınıram!”[1]

– səfərdə ikən çoxlu dua etmək. Çünki müsafirin duası qəbul olunan dualardandır. Peyğəmbər ﷺ demişdir: “Üç sinif insan var ki, onların dualarının qəbul olunmasına şübhə yoxdur – məzlumun duası,

---

[1] əl-Hakim, “Müstədrək”.

müsafirin duası, valideynin övladı üçün etdiyi dua!”[1]

– müsafirin səhərə yaxın etdiyi dua:

(( سَمَّعَ سَامِعٌ بِحَمْدِ اللهِ، وَحُسْنِ بَلَائِهِ عَلَيْنَا. رَبَّنَا صَاحِبْنَا وَأَفْضِلْ عَلَيْنَا عَائِذًا بِاللهِ مِنَ النَّارِ ))

[Səmmə'a (səmmi'a) samiun bihəmdilləhi və husni bəlaihi aleynə. Rabbənə sahibnə və afdıl aleynə aizən billəhi minən-nər]

«Bizə gözəl nemət bəxş etdiyinə görə Allaha etdiyimiz həmdi eşidən eşitdi (və ya eşitdirdi). Oddan Allaha sığınaraq *deyirəm:* “Ey Rəbbimiz! Bizə yoldaş ol (bizi qoru) və bizə mərhəmət et!”»[2]

---

[1] “Sünən Əbu Davud”.

[2] “Səhih Muslim”. Hədisdəki “eşidən eşitdi”, yəni “Allahın *bizə verdiyi* nemətlərinə və lütfünə görə Ona etdiyimiz həmdə şahid olan şahid oldu”. «Eşidən eşitdirdi» sözünün mənası isə odur ki, «Mənim bu sözlərimi eşidən, onları başqalarına çatdırdı və o da eyni ilə həmin sözləri dedi».

– xüsusən həcc ziyarətində günah işlərdən çəkinmək lazımdır. Uca Allah buyurur:

﴿ ٱلْحَجُّ أَشْهُرٌ مَّعْلُومَٰتٌ ۚ فَمَن فَرَضَ فِيهِنَّ ٱلْحَجَّ فَلَا رَفَثَ وَلَا فُسُوقَ وَلَا جِدَالَ فِى ٱلْحَجِّ ۗ وَمَا تَفْعَلُوا۟ مِنْ خَيْرٍ يَعْلَمْهُ ٱللَّهُ ۗ وَتَزَوَّدُوا۟ فَإِنَّ خَيْرَ ٱلزَّادِ ٱلتَّقْوَىٰ ۚ وَٱتَّقُونِ يَٰٓأُو۟لِى ٱلْأَلْبَٰبِ ﴾

**“Həcc *ziyarəti* məlum olan aylardadır. Bu aylarda həccə getməyi niyyət edən kəs həcc *ziyarətində qadını ilə* yaxınlıq etməməli, günah işlər görməməli və mübahisələrə qoşulmamalıdır”**.[1]

– səfərə çıxan adam səfər yoldaşlarına köməklik göstərməlidir. Peyğəmbər ﷺ səhabələri ilə birlikdə səfərdə olarkən demişdir: “Qoy azuqəsi çox olanlar heç azuqəsi olmayanlara əl tutsun!”[2]

---

[1] ”əl-Bəqərə” surəsi, 197.

[2] “Səhih Muslim”.

– səfərdə ləngiməyib ailə üzvlərinin yanına tələsməlidir. Peyğəmbər ﷺ demişdir: “Səfər əzabın bir parçasıdır – adamı yeməyindən, içməyindən və yatmağından qoyur. Odur ki, işini görüb qurtarmış adam ailəsinin yanına tələssin!”[1]

– səfərdən qayıdanda aşağıdakı duaları oxumaq lazımdır:

(( آيِبُونَ، تَائِبُونَ، عَابِدُونَ، لِرَبِّنَا حَامِدُونَ ))

[Ayibunə, taibunə, abidunə, li Rabbinə hamidun]

“Biz geri dönənlər, tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik!”[2]

(( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، آيِبُونَ، تَائِبُونَ، عَابِدُونَ، لِرَبِّنَا حَامِدُونَ، صَدَقَ اللهُ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ وَهَزَمَ الأَحْزَابَ وَحْدَهُ ))

---

[1] “Səhih əl-Buxari”.

[2] “Səhih Muslim”.

[Lə ilahə illəllahu vəhdahu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Ayibunə, taibunə, abidunə, li Rabbinə hamidun. Sadəqallahu va'dəhu, və nəsara abdəhu və həzəməl-əhzabə vəhdəhu]

“Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Biz geri dönənlər, tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik! Allah vədinə sadiq oldu, quluna kömək etdi və düşmənlərdən olan dəstələri tək Özü məğlub etdi!”[1]

– səfərdən gecə ikən ailə üzvlərinin yanına qayıdıb qəfildən qapını döymək qadağandır. Zəruri hallarda isə ailəni əvvəlcədən xəbərdar etmək lazımdır. Cabir ibn Abdullah رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ kişiyə gecə vaxtı səfərdən

[1] “Səhih əl-Buxari” və “Səhih Muslim”.

gəlib evinin qapısını döyməyi qadağan etmişdir.[1]

– səfərdən evə qayıdanda məscidə gəlib iki rükət namaz qılmaq bəyənilən əməllərdəndir. Çünki Peyğəmbər ﷺ səfərdən qayıdanda məscidə gəlib iki rükət namaz qılardı.[2]

– səfərdən qayıdanda uşaqları əzizləmək, onlara nəvaziş göstərmək Peyğəmbərimizin ﷺ sünnəsidir. Abdullah ibn Cəfər رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ səfərdən qayıdanda bizə nəvaziş göstərərdi. Bir dəfə o mənimlə Həsəni atının tərkinə alıb Mədinəyə qədər apardı.[3]

– yaxınlara hədiyyə vermək bəyənilir. Peyğəmbər ﷺ demişdir: "Bir-birinizə hədiyyə verin ki, bir-birinizi sevəsiniz!"[4]

---

[1] "Səhih əl-Buxari".

[2] "Səhih əl-Buxari".

[3] "Səhih Muslim".

[4] əl-Buxari, "Ədəbul Mufrad".

Ən gözəl hədiyyə isə zəm-zəm suyudur. Peyğəmbər صلى الله عليه وآله وسلم Məkkədən qayıdanda özü ilə zəm-zəm suyu gətirib onu xəstələrə verərdi.[1]

– səfərdən qayıtdıqdan sonra dostları bir yerə yığıb onlara yemək-içmək vermək müstəhəbdir. Cabir ibn Abdullah رضي الله عنه rəvayət edir ki, Peyğəmbər صلى الله عليه وآله وسلم Mədinəyə gəldikdə bir dəvə, yaxud bir öküz kəsdi.[2]

---

1 "Sünən ət-Tirmizi".

2 "Səhih əl-Buxari".

# *Səfərdə namaz qılınması*

Uca Allah buyurur:

﴿ وَإِذَا ضَرَبۡتُمۡ فِي ٱلۡأَرۡضِ فَلَيۡسَ عَلَيۡكُمۡ جُنَاحٌ أَن تَقۡصُرُواْ مِنَ ٱلصَّلَوٰةِ
إِنۡ خِفۡتُمۡ أَن يَفۡتِنَكُمُ ٱلَّذِينَ كَفَرُوٓاْۚ إِنَّ ٱلۡكَٰفِرِينَ كَانُواْ لَكُمۡ عَدُوّٗا مُّبِينٗا ﴾

**“Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanıza görə sizə günah gəlməz”**.[1]

Ayədə səfərdə namazların qısaldılmasının Allah tərəfindən müsəlmanlara verilmiş rüxsət olduğu göstərilir. Ömər ibn əl-Xəttab ﵁ rəvayət edir ki, mən Peyğəmbərdən ﷺ səfərdə namazların qısaldılması barədə soruşduqda, o ﷺ belə dedi: “Bu, Allahın sizə ehsan buyurduğu bir sədəqədir, Onun verdiyi sədəqəni qəbul edin!”[2]

---

[1] “ən-Nisa” surəsi, 101.

[2] “Səhih Muslim”.

Peyğəmbərdən ﷺ varid olan bir çox hədislərdə göstərilir ki, o ﷺ, səfərdə ikən məğrib və sübh namazları istisna olmaqla, digər namazlarını qısaldıb iki rükət-iki rükət qılardı. Aişə رضي الله عنها rəvayət edir ki, səfərdə və evdə qılınan hər namazı yalnız iki rükət qılmaq vacib buyuruldu, sonra da səfərdə qılınan namazlar olduğu kimi qaldı, evdə qılınan namazlara isə *bir və ya iki rükət* əlavə olundu.[1]

Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki, "mən Peyğəmbərə ﷺ, Əbu Bəkrə رضي الله عنه, Ömərə رضي الله عنه və Osmana رضي الله عنه yol yoldaşı oldum. Onlar səfərdə olduqları müddətdə namazları iki rükətdən artıq qılmazdılar".[2] Başqa rəvayətdə isə o demişdir: "Mən iki və ya dörd ay Azərbaycanda olduğum zaman dörd rükətli namazları iki rükət-iki rükət qılırdım".[3]

---

[1] "Səhih əl-Buxari" və "Səhih Muslim".

[2] "Səhih əl-Buxari".

[3] Heysəmi, "Məcməuz Zəvaid"; "Sunən Beyhəqi".

Qeyd etmək lazımdır ki, səfərdə ikən nafilə namazlarından yalnız sübhün sünnəsi və vitr namazı qılınır. Həmçinin onu da qeyd edək ki, səfərdə qılınan nafilə namazlarını, habelə zərurət olduğu halda vacib namazları minik üzərində qılmaq caizdir. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, “Peyğəmbər ﷺ Məkkədən Mədinəyə gedərkən minik üzərində getdiyi istiqamətə tərəf üz tutub namaz qıldı və bu ayə nazil oldu:

﴿ وَلِلَّهِ ٱلْمَشْرِقُ وَٱلْمَغْرِبُۚ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ ٱللَّهِۚ إِنَّ ٱللَّهَ وَٰسِعٌ عَلِيمٌ ﴾

**“Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah** ***hər şeyi*** **Əhatəedəndir, Biləndir”**.[1]

Zəruri halda vacib namazları minik üzərində qılan müsəlman Allahdan

[1] “əl-Bəqərə” surəsi, 115.

bacardığı qədər qorxmalı və namazını ayaq üstə qıla bilərsə, ayaq üstə, oturduğu halda qıla bilərsə, oturduğu halda qılmalıdır. Rüku və səcdə edə bilməyən şəxs bunları başını aşağı-yuxarı əyməklə yerinə yetirməlidir. İbn Ömər ﺭﺿﻲ ﺍﻟﻠﻪ ﻋﻨﻬﻤﺎ minik üzərində namazını bu şəkildə qılmış və Peyğəmbərin ﷺ də belə etdiyini xəbər vermişdir”.[1] Vurğulamaq lazımdır ki, Peyğəmbər ﷺ vacib namazlarını minik üzərində qılmamışdır.[2] Deməli, bunu yalnız ən zəruri hallarda, namazın vaxtının bitəcəyi təqdirdə etmək olar.

Yerli sakinlərdən olan imamın arxasında namaz qılan müsafir imama tabe olmalı, hətta sonuncu rükətin təşəhhüdünə gəlib çatsa belə, o namazı imamın qıldığı kimi tam qılmalıdır. İbn Abbas ﺭﺿﻲ ﺍﻟﻠﻪ ﻋﻨﻬﻤﺎ rəvayət edir ki, yerli imamın arxasında ikən ona tabe olub namazı tam qılmaq

[1] “Səhih Muslim”.

[2] “Səhih Muslim”.

və əks təqdirdə də qısaltmaq Əbul Qasimin ﷺ sünnəsidir".[1]

Əgər müsafir yerli sakinlərə imamlıq edərsə, onda o, namazını iki rükət qılıb salam verməli, ona tabe olan namaz qılanlar isə salam vermədən qalxıb yerdə qalan rükətlərini tamamlamalıdırlar. Ömər رضي الله عنهما Məkkəyə gəldikdə iki rükət namaz qılıb deyərdi: "Ey Məkkə əhli! Namazınızı tamamlayın. Biz müsafirik!"[2]

Namazlardan zöhr ilə əsri, məğriblə işanı cəm edib qılmaq isə sünnədir.[3] İbn Abbas رضي الله عنهما rəvayət edir ki, "Peyğəmbər ﷺ səfərdə olduğu müddətdə zöhrlə əsr namazını, məğriblə də işa namazını cəm edib qılardı".[4] Bu zaman zöhrlə əsr namazını zöhrün əvvəl vaxtından əsr namazının axır vaxtınadək, məğriblə də

---

[1] "Səhih Hədislər Silsiləsi", 2676.

[2] Malik, "əl-Muvatta".

[3] "Şərhul-Mumti", 4/509, 548.

[4] "Səhih əl-Buxari".

işa namazını məğribin əvvəl vaxtından işanın axır vaxtınadək istənilən vaxtda, qılmaq olar.[1]

Qeyd etmək lazımdır ki, namazları cəm etdikdə bu namazların qılınması üçün bir azan vermək kifayətdir. İqaməni isə hər namazdan əvvəl vermək lazımdır. Bu namazları birləşdirib ardıcıl qılmaq isə şərt deyil – ehtiyac olmadıqca hər birini öz vaxtında qılmaq daha yaxşıdır.[2] Muaz ibn Cəbəl رضي الله عنه rəvayət edir ki, Peyğəmbər صلى الله عليه وآله وسلم Təbuk döyüşündə ikən günəş zenitə çatmazdan əvvəl yola çıxmaq istədikdə zöhr namazını təxirə salıb əsr namazı ilə bir vaxtda – əsrin vaxtında qılardı. Səfər əsnasında günəş zeniti keçdikdən sonra yola çıxmaq istəyəndə isə əsr namazını tezləşdirib zöhr namazı ilə bir vaxtda – zöhrün vaxtında qılardı. Eləcə də gün batmamışdan əvvəl

[1] “Şərhul-Mumti”, 4/449.

[2] “Şərhul-Mumti”, 4/568-569.

yola düşmək istədikdə məğrib namazını təxirə salıb işa namazı ilə bir vaxtda – işanın vaxtında qılardı. Gün batandan sonra yola düşmək istəyəndə isə işa namazını tezləşdirib məğrib namazı ilə bir vaxtda – məğribin vaxtında qılardı".[1]

əl-Əlbani bu hədisi "Səhih hədislər silsiləsi"ndə[2] nəql etdikdən sonra demişdir: "Bu hədisdən sonra artıq ibn Qeyyimin "Zadul Məad" əsərindəki: "Peyğəmbər ﷺ səfərdə ikən namazları cəm etməz, öz vaxtında qılardı" sözünə (1/189) əhəmiyyət vermək lazım gəlmir. Belə ki, bir çox yerlərdə yaşayan bizim bəzi sələfi qardaşlarımız ibn Qeyyimin bu rəyindən sonra çaşbaş qalmışlar. İbn Qeyyimin bu hədisdən xəbərsiz olduğu çox qəribədir. Lakin bu kitabı səfərdə olarkən yazdığını biləndən sonra artıq onun üzrlü olduğu bizə məlum olur.

[1] "Sunən Əbu Davud".

[2] "Nuzum əl-Fəraid", 1/457.

Həmçinin, qəribədir ki, onun şeyxi ibn Teymiyyə bir çox kitablarında bu rəyin tam əksini söyləmişdir. İbn Teymiyyə kitabında bu hədisi rəvayət etdikdən sonra demişdir: “Müsafir üçün namazları cəm etməyin üç forması vardır:

– əgər cəm edəcəyi namazlardan birincisinin vaxtında yolda olub ikinicisinin vaxtında mənzil başına çatacaqsa, onda o, namazlarını əl-Buxari və Muslimin “Səhih” əsərlərində Ənəsdən رضي الله عنه və ibn Ömərdən رضي الله عنهما rəvayət olunan hədisə əsasən, ikincisinin vaxtında cəm edir. Buna da məğrib və işa namazlarının Müzdəlifə vadisində cəm edilməsini misal çəkmək olar.

– yox, əgər cəm edəcəyi namazlardan ikincisinin vaxtında yolda olacaqsa, onda o, namazlarını birincisinin vaxtında cəm edir. Buna da zöhr və əsr namazlarının Ərafatda cəm edilməsini misal çəkmək olar.

– yox, əgər cəm edəcəyi namazlardan hər ikisinin vaxtında mənzil başına çatacağı ehtimal olunursa, onda o, Muaz ibn Cəbəldən ﷺ Peyğəmbərin ﷺ Təbuk səfərində namazlarını birləşdirdiyinə dair rəvayət olunan hədisə əsasən namazlarını hər ikisinin vaxtında cəm edib qıla bilər...

Bütün bunlardan nəticə çıxarıb demək olar ki, səfərdə ikən namazları cəm etmək, onları qısaltmaq kimi deyildir. Əksinə, yalnız ehtiyac üzündən namazları cəm etmək olar..."[1]

Yalnız dörd rükətli namazlar qısaldılaraq iki rükət qılınır. Məğrib namazı isə tam üç rükət qılınır. İbn Ömər ﷺ rəvayət edir ki, "Mən Peyğəmbərin ﷺ səfərdə məğrib namazını üç rükət qıldığını və təxirə saldığını gördüm…"[2]

[1] "Məcmu Fətavə", 24/63.

[2] "Məcmu Fətavə", 24/64.

Səfər namazının qılınması üçün müəyyən bir məsafəni və ya günləri təyin etməyə gəldikdə isə, qeyd olunmalıdır ki, bu məsələdə alimlər ixtilaf etmişlər. Lakin daha doğru rəy budur ki, səfər üçün qəti olaraq müəyyən bir məsafə və ya gün təyin edilməmişdir. İbn Teymiyyə demişdir: “Peyğəmbərin ﷺ sünnəsini araşdırıb, onun müsafirə iki rükət namaz qılmağı buyurduğunu, səfər üçün nə bir məsafə, nə də səfərinin üç, ya dörd, ya on iki, ya da on beş günlə məhdudlaşdırmadığını görən hər bir şəxs səfərdə namazı qısaltmalıdır. Bir çox sələflərdən bunu edənlər olmuşdur. Müsəlmanlar “Nəhavənd” döyüşündə altı ay namazlarını qısaltmışlar”.[1]

Həmçinin ibn Qeyyim də bu fikri dəstəkləyib belə demişdir: “Peyğəmbər ﷺ namazların qısaldılması və orucun açılmasına dair ümməti üçün səfərlə bağlı

---

[1] “Məcmu fətava”, 24/18.

müəyyən bir məsafə təyin etməmiş, əksinə, bunu mütləq şəkildə səfərə aid etmişdir".[1]

Bu məsələdə alimlərin iyirmiyə yaxın rəyi vardır, lakin ən doğru rəy yuxarıda qeyd etdiyimiz rəydir.[2]

El arasında səfər hesab olunan yerdə səfər namazı qılmaq üçün rüxsət verilir.[3] Bu da əksər İslam alimlərinin rəyidir.[4] İbn Munzir demişdir: "İslam alimlərinin hamısı fətva vermişlər ki, səfərə çıxmaq istəyən şəxs yaşadığı məmləkətdəki son evdən uzaqlaşdıqdan sonra namazlarını qısa şəkildə qıla bilər".[5] Buna dəlil olaraq Ənəsin ﷺ hədisini göstərmək olar. O demişdir: "Mən zöhr namazını Peyğəmbərlə ﷺ birlikdə Mədinədə dörd

---

[1] "Zadul Məad", 1/189.

[2] "Nuzum əl-Fəraid", 1/463.

[3] "Şərhul-Mumti", 4/498.

[4] İbn Baz, "Məcmu fətava", 12/267.

[5] "əl-İcma", 47.

rükət, zil-Huleyfədə olanda isə iki rükət qıldım".[1]

Deməli, səfərə çıxan adam hələ evində ikən səfər namazı qıla bilməz.

Yenə ibn Munzir demişdir: "İslam alimlərinin hamısı belə fətva vermişlər ki, səfərə çıxan şəxs müsafir sayıldığı müddət ərzində namazlarını qısaldaraq qılmalıdır".[2] Buna dəlil kimi Ənəsin ﷺ hədisini göstərmək olar. O demidir: "Mən Peyğəmbərlə ﷺ birlikdə Mədinədən Məkkəyə getdim. O, namazları iki rükət-iki rükət qıldı". İnsanlar Ənəsdən: "Peyğəmbər ﷺ Məkkədə neçə gün qaldı?"– deyə soruşduqda, o: "On gün!"– deyə cavab verdi.[3]

Yuxarıdakı hədislərdən və alimlərin söylədiklərindən nəticə çıxarmaq olar ki, səfərdə olan adam getdiyi yerdə uzun

---

[1] "Səhih əl-Buxari" və "Səhih Muslim".

[2] "əl-İcma", 47.

[3] "Səhih əl-Buxari" və "Səhih Muslim".

müddət qalacağını niyyət etməyibsə və ya nə vaxt qayıdacağını yəqin bilmirsə, onda səfərə aid bütün şəriət hökmlərinə riayət edə bilər.

Şəriət, səfərin məşəqqətli olduğunu nəzərə alıb bir şox əməlləri bizim üçün asanlaşdırmış və bu işlərdə bizə rüxsət vermişdir. Bunlar aşağıda qeyd olunanlardır:

– namazları qısaltmaq;

– zöhrlə əsri, məğriblə işanı cəm edib bir vaxtda qılmaq. Qeyd edək ki, səfərdə mənzil başına çatanadək bu namazları cəm etmək müstəhəbdir. Lakin mənzil başına çatdıqdan sonra bu namazları cəm etmək caiz, imkan olduqca onları öz vaxtında qılmaq isə daha əfzəldir;

– oruc tutmamaq. Uca Allah buyurur:

﴿ وَمَن كَانَ مَرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ
أُخَرَ ۗ يُرِيدُ ٱللَّهُ بِكُمُ ٱلْيُسْرَ وَلَا يُرِيدُ بِكُمُ ٱلْعُسْرَ ﴾

**"Xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda** ***oruc tutmalıdır.*** **Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir"**.[1]

– nafilə namazlarını, hətta məcburiyyət qarşısında fərz namazlarını belə minik üzərində qılmaq;

– birinci dəfə çəkilən məshdən sonra üç gün ərzində xuffun[2] və corabın üstündən məsh çəkmək. Əli ibn Əbu Talib رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ müsafirə üç gün və üç gecə, yerli sakinə isə bir gün və bir gecə məsh çəkməyə rüxsət verdi.[3]

Muğirə ibn Şöbə رضي الله عنه rəvayət edir ki, mən Peyğəmbərlə ﷺ birlikdə səfərdə oldum. O, dəstəmaz alanda mən əyilib onun ayağındakı xuffu çıxartmaq istədikdə, Peyğəmbər ﷺ mənə: "Onları

---

[1] "əl-Bəqərə" surəsi, 185.

[2] Dəridən hazırlanmış ayaqqabı.

[3] "Səhih Müslım".

çıxartma. Çünki mən onları dəstəmazlı ikən geyindim"– dedi və onların üzərinə məsh çəkdi.[1]

Yenə Muğirə ibn Şobə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ corabının üzərinə məsh çəkdi.[2]

– sübh namazından əvvəl qılınan nafilə namazı və bir də vitr namazını, habelə gecə namazını və duha namazını qılmaq olar;

– Peyğəmbər ﷺ demişdir: "*Müsəlman* bəndə xəstələndiyi və ya səfərdə olduğu zaman etdiyi yaxşı əməllərə görə, sağlam olduğu halda yaşadığı məmləkətdə ikən qazandığı savab qədər savaba nail olur".[3]

---

[1] "Səhih əl-Buxari" və "Səhih Muslim".

[2] "Sunən Əbu Davud"; "İrvaul Ğalil", 101.

[3] "Səhih əl-Buxari".

## *Səfərlə əlaqəli bəzi məsələlər* [1]

– Təyyarəyə minib səfərə çıxmaq istəyən adam həmin gün üçün orucuna ara vermişsə, sonra da təyyarə geri dönmüş və uçuşu təxirə salınmışsa, evinə döndüyü zaman həmin günün orucunu tamamlamaq ona vacib olmaz. Sadəcə olaraq, sonrakı aylarda həmin günün qəzasını tutmaq lazım gələcək.

– Orucu pozmaq məqsədilə səfərə çıxmaq həm şəriətə ziddir, həm də günahdır. Şəriət qayda-qanununa görə vacibi tərk etmək və ya haram iş görmək üçün fənd işlətmək niyyəti batil edir və sahibinə günah qazandırır;

– hər hansı nəqliyyat vasitəsində səfərə çıxan şəxs təkbir gətirib namaza başladıqdan sonra namazını tam qılmalıdır;

---

[1] "Şərhul-Mumti", 4/516-578.

– hər hansı nəqliyyat vasitəsində vətəninə daxil olan şəxs təkbir gətirib namaza durduqdan sonra namazını tam qılmalıdır;

– evdə qıldığı namazın batil olduğunu səfərdə xatırlayan şəxs həmin namazı tam qılmalıdır;

– müsafir, yerli sakinlərdən olan imamın arxasında qıldığı namazı imama tabe olaraq tam qılmalıdır.

– arxasında namaz qıldığı imamın müsafir, yoxsa yerli sakin olduğunu bilməyən şəxs imamla namazını tam qılacağını niyyət edib ona tabe olmalıdır.

– imama tabe olaraq namazı tam qılmağa niyyət edən müsafirin namaz əsnasında dəstəmazı pozularsa o nə etməlidir?

a) Dəstəmaz aldıqdan sonra tərk etdiyi camaat namazına çatarsa, onu tam qılmalıdır.

b) Namaz qılınıb bitmişdirsə və o, namazı tək qılarsa, bu halda o, namazı qısaltmalıdır.

* Namazın vaxtı girdikdən sonra həmin namazı qılmayıb səfərə çıxan şəxs o namazı səfərdə qısaltmalıdır.

* Namazın vaxtı girdikdən sonra həmin namazı qılmayıb vətəninə daxil olan şəxs o namazı tam qılmalıdır.

– namazı tam və ya qısa qılmağı niyyət etmədən namaza başlayan müsafir namazını qısaltmalıdır.

– namazı qısaltmağı niyyət edib-etmədiyinə şəkk edən müsafir öz namazını qısaltmalıdır.

– müsafirin səfər namazı qılmasına zaman məhdudiyyəti yoxdur.

– namaz qılmaq yaddan çıxmışsa, yada düşdükdə onu aşağıdakı kimi qılmaq lazımdır:

* səfərdə unudulan namaz səfərdə ikən yada düşsə, onu qısaldıb qılmaq lazımdır;

* daimi yaşayış yerində unudulan namaz həmin yerdə yada düşsə, onu tam şəkildə qılmaq lazımdır;

* səfərdə unudulan namaz vətənə qayıtdıqdan sonra yada düşsə, onu qısaldıb qılmaq lazımdır;

* daimi yaşayış yerində unudulan namaz səfərdə ikən yada düşsə, onu tam şəkildə qılmaq lazımdır;

– Hər hansı bir səbəb üzündən səfərdən qayıtmağı təxirə düşən insan namazlarını qısa şəkildə qılmalıdır. Yəni soyuq hava, xəstəlik, haqsızlığa məruz qalmaq və başqa bu kimi səbəblər üzündən səfərdən qayıda bilməyən şəxs namazlarını qısa şəkildə qılmalıdır. Buna ibn Ömərdən rəvayət olunan hədisi dəlil göstərmək olar. O, altı ay Azərbaycanda qalmış və namazlarını qısa şəkildə qılmışdır. O vaxt Azərbaycanda davamlı qar yağması onun səfərini təxirə salmışdı. Qeyd edək ki, səhabənin ictihadı iki şərtlə dəlil hesab edilə bilər:

a) mötəbər hədisə müxalif olmasın;

b) başqa səhabələrin ictihadına zidd olmasın.

– müsafir getdiyi ölkədə qalmaq üçün iki cür niyyət edə bilər;

a) Əgər bu adam getdiyi yerdə uzun müddət qalmayacağını, işini görüb qurtaran kimi evinə dönəcəyini niyyət etmişsə, onda o, namazlarını qısa şəkildə qılmalıdır. Belə olduğu təqdirdə onun işi ləngisə belə və o, bu işin ucbatından uzun müddət səfərdə qalsa belə, yenə namazlarını qısa şəkildə qılmalıdır. Çünki o, həmin yerdə qalacağına hədd qoymuş – bunu az bir müddətlə və ya işi ilə məhdudlaşdırmışdır.

b) Yox əgər o, getdiyi yerdə uzun müddət qalacağını və səfərdən qayıtmasının heç bir işdən asılı olmadığını niyyət etmişsə, onda o, namazlarını tam şəkildə qılmalıdır. Çünki o, həmin yerdə qalacağına müəyyən bir hədd qoymamışdır.

– səfərdə ikən əsr namazı ilə məğrib namazını cəm etmək olmaz. Çünki onlardan biri gündüz, digəri isə gecə namazıdır.

– namazları cəm etməyə dair şəriət belə bir qayda qoymuşdur ki, hər kəs namazları öz vaxtında qılıb məşəqqətlə üzləşdikcə, həmin namazları cəm şəkildə qıla bilər. Məşəqqətə gəldikdə isə, buna səfəri, leysan yağışı, havanın həddindən artıq soyuq olmasını, ağır xəstəliyi və başqa bu kimi ciddi səbəbləri misal çəkmək olar. Buna aşağıdakı ayə və hədisi dəlil göstərmək olar;

Uca Allah buyurur:

﴿ يُرِيدُ ٱللَّهُ بِكُمُ ٱلْيُسْرَ وَلَا يُرِيدُ بِكُمُ ٱلْعُسْرَ ﴾

**“Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir”**.[1]

---

[1] “əl-Bəqərə” surəsi, 185.

﴿ وَمَا جَعَلَ عَلَيۡكُمۡ فِي ٱلدِّينِ مِنۡ حَرَجٖ ﴾

**"*Allah* bu dində sizin üçün heç bir çətinlik yaratmadı"**.[1]

Əbu Hureyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Həqiqətən də, *bu* din asandır".[2]

İbn Abbas رضي الله عنهما deyir ki, "Peyğəmbər ﷺ Mədinədə ikən heç bir təhlükə olmadığı və yağış yağmadığı *bir gündə* zöhrlə əsr namazını, məğriblə işa namazını cəm edib qıldı". İbn Abbasdan رضي الله عنهما: "O nə üçün belə etdi?"– deyə soruşdular. İbn Abbas dedi: "Ümmətini çətinliyə salmasın deyə *belə etdi*".[3]

Bu hədisdən belə nəticə çıxarmaq olar ki, əziyyət və məşəqqətlə rastlaşan hər kəs namazları cəm edib qıla bilər.

---

1 "əl-Həcc" surəsi, 78.

2 "Səhih Muslim".

3 "Səhih Muslim".

Məşəqqətə isə leysan yağışı[1], çox bərk əsən şaxtalı külək, təhlükə[2], ağır xəstəlik[3] və başqa bu kimi hallar aiddir.

– namazları cəm etdikdə onları dalbadal qılmaq şərt deyil. Lakin onları müəyyən qaydaya uyğun olaraq qılmaq vacibdir;

– səfərdən evinə qayıdan adam cəm edəcəyi namazları təxirə salmış və ikincisinin vaxtında gəlib yaşadığı yerə çatmışsa, onda o, bu namazları cəm edib tam şəkildə qılmalıdır.

– əsr namazının cümə namazıyla cəm olunmasına gəlincə, demək lazımdır ki, bu əməl sünnəyə müxalifdir. Çünki cümə namazı ayrıca bir namazdır və onun şərtləri, forması, rükunları və savabı digər namazlardan fərqlidir. Hədislərdə

---

[1] İmam Malik, "Muvatta"; "Sunən əl-Beyhəqi". Bax: "İrvaul Ğalil", 583.

[2] "Səhih Muslim".

[3] "Sunən Əbu Davud". Bax: "İrvaul Ğalil", 188.

gündüz vaxtı yalnız zöhrlə əsrin cəm olunması göstərilmişdir. Cümə namazının əsr namazıyla cəm olunmasına dair Peyğəmbərdən ﷺ heç bir hədis rəvayət edilməmişdir. Cümə namazını zöhr namazı ilə müqayisə etmək də düzgün deyildir. Lakin müsafir cümə günü yerli əhali ilə cümə namazını qılmayıb zöhr namazını qılarsa, o zaman ona zöhrlə əsri cəm etmək caiz olar. Çünki müsafirə cümə namazını qılmaq vacib deyil. Belə ki, Peyğəmbər ﷺ vida həccində cümə günü Ərafatda zöhrlə əsr namazını bir azan və iki iqamə ilə qılmışdır. Həmin gün Peyğəmbər ﷺ cümə namazını qılmamışdır. Bütün bunlardan nəticə çıxarıb demək olar ki, cümə və əsr namazlarını cəm edib qılan şəxs əsr namazını yenidən qılmalıdır. Çünki o, namazı vaxtından tez qılmışdır.

– şəriətdə səfərlə əlaqəli qayda-qanunlar qadınlara da aiddir. Onlar da kişilər kimi bu hökmlərə riayət etməlidirlər.

Lakin şəriətdə elə bir məsələ var ki, onda qadınlar kişilərdən fərqlidirlər. Bu da qadının təkbaşına səfərə çıxmasıdır. Peyğəmbərimiz ﷺ qadının təkbaşına səfərə çıxmasını qadağan edib demişdir: "Allaha və Axirət gününə iman gətirmiş qadının bir gün və bir gecə yanında məhrəmi olmadan səfərə çıxması ona halal deyildir".[1]

Burada məhrəm dedikdə, qadının yaxınlarından bəziləri nəzərdə tutulur. Bunlar da aşağıda qeyd olunanlardır:

Qadının atası, əri, əmisi və dayısı, atasının əmisi və dayısı, anasının əmisi və dayısı, doğma və ögey oğlu, doğma və süd qardaşı, atabir və ya anabir qardaşı, qız və ya oğul nəvəsi, qardaşının və bacısının oğlu, qayınatası, kürəkəni, həm ata, həm də ana babası.

Bundan başqa Allah qadınlara öz evlərində qərar tutmağı, yad kişilərdən

[1] "Səhih Muslim".

mümkün qədər uzaq olmağı buyurmuşdur:

﴿ يَٰنِسَآءَ ٱلنَّبِيِّ لَسۡتُنَّ كَأَحَدٖ مِّنَ ٱلنِّسَآءِ إِنِ ٱتَّقَيۡتُنَّ فَلَا
تَخۡضَعۡنَ بِٱلۡقَوۡلِ فَيَطۡمَعَ ٱلَّذِي فِي قَلۡبِهِۦ مَرَضٞ وَقُلۡنَ قَوۡلٗا مَّعۡرُوفٗا
٣٢ وَقَرۡنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجۡنَ تَبَرُّجَ ٱلۡجَٰهِلِيَّةِ ٱلۡأُولَىٰۖ
وَأَقِمۡنَ ٱلصَّلَوٰةَ وَءَاتِينَ ٱلزَّكَوٰةَ وَأَطِعۡنَ ٱللَّهَ وَرَسُولَهُۥٓۚ إِنَّمَا
يُرِيدُ ٱللَّهُ لِيُذۡهِبَ عَنكُمُ ٱلرِّجۡسَ أَهۡلَ ٱلۡبَيۡتِ وَيُطَهِّرَكُمۡ
تَطۡهِيرٗا ٣٣ ﴾

**"Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər** *Allahdan* **qorxursunuzsa,** *yad kişilərlə* **nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər.** ***Şəriətə*** **müvafiq qaydada danışın. Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin"**.[1]

[1] "əl-Əhzab" surəsi, 32-33.

# *Səfərdə oruc tutmaq*

Bu fəsildə səfərdə oruc tutmağa aid bəzi hədislər və onların izahı verilir.

Həmzə ibn Amr Sulәmi رضي الله عنه Peyğəmbərdən ﷺ: "Səfərdə oruc tuta bilərəmmi?"– deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "İstəyirsən, tut, istəmirsən, tutma!"[1]

Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, biz Peyğəmbər ﷺ ilə birlikdə səfərdə olduğumuz müddətdə aramızda oruc tutanlar və tutmayanlar olardı. Buna görə onlar bir-birilərini qınamazdılar.[2]

Əbu Dərda رضي الله عنه rəvayət edir ki, "Biz Ramazan ayının şiddətli istisində Peyğəmbərlə ﷺ bərabər səfərə çıxdıq. Aramızda Peyğəmbər ﷺ və Abdullah ibn Rəvahadan başqa oruc tutan yox idi".[3]

---

[1] "Səhih əl-Buxari"; "Səhih Muslim".
[2] "Səhih əl-Buxari"; "Səhih Muslim".
[3] "Səhih əl-Buxari"; "Səhih Muslim".

Cabir ibn Abdullah ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ səfərdə taqətdən düşmüş bir kişinin başına toplanmış səhabələri görüb onlardan onun nə üçün bu hala düşməsi barədə soruşdu. Səhabələr: “O, oruc tutub”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: “Səfərdə oruc tutmaq yaxşı əməllərdən deyil”.[1]

Başqa bir rəvayətdə isə o ﷺ demişdir: “Bu gün oruc tutmayanlar savab qazandılar”.[2]

Yenə başqa bir rəvayətdə o ﷺ demişdir: “Allahın sizə rüxsət verdiyi bu hökmdən möhkəm yapışın”.[3]

Yuxarıdakı hədislərdən çıxarılan nəticələr bunlardır:

– səfərdə oruc tutmağın və ya onu tərk etməyin caiz olması;

---

1 “Səhih əl-Buxari”; “Səhih Muslim”.

2 “Səhih Muslim”.

3 “Səhih əl-Buxari”; “Səhih Muslim”.

– səfərdə oruc tutmağın insanın öz ixtiyari ilə olması. Belə ki, qüvvəsi çatan adama səfərdə oruc tutmaq müstəhəbdir;

– Peyğəmbəri ﷺ öz səhabələrinə səfərdə oruc tutub-tutmadıqlarına görə etiraz etməməsi;

– şiddətli istidə belə oruc tutmağın caiz olması;

– səfərdə oruc tutmağın müsəlmanın ixtiyarına buraxılması;

– səfərdə, nəfsə zülm edildiyi halda, oruc tutmağın bəyənilməyən əməllərdən sayılması. Lakin demək lazımdır ki, belə vəziyyətdə tutulmuş oruc məqbuldur;

– taqəti olmayan şəxsə səfərdə ikən oruc tutmamağın daha üstün hesab edilməsi;

– gücü yetən adama səfərdə ikən Ramazan orucunu tutmağın daha fəzilətli olması;

– İslam dininin insanları yalnız xeyirxah işlər görməyə çağırması.

# *Son söz*

Möhtərəm müsəlmanlar!

Yığcam şəkildə tərtib edilmiş bu müfəssəl kitabca, ümid edirik ki, Allahın rizası üçün səfərə çıxan bacı və qardaşlarımıza müsafirlik dövründə ibadət etməyin Qurana və Sünnəyə uyğun yerinə yetirilməsi barədə müəyyən biliklər verə biləcək və bu sahədə onların bələdçisi olacaqdır.

Artıq iyirmi birinci əsirdə yaşayan müsəlman bacı və qardaşlarımız əvvəlki dövrlərə nisbətən daha tez-tez müxtəlif növ səfərlərə çıxır və müsafir həyatı sürməyə məcbur olurlar. Bunun ilə əlaqədar olaraq onların gündəlik ibadətlərinin vaxtında və şəriətə müvafiq olaraq yerinə yetirməsi məsələsinin təfərrüatı xeyli əhəmiyyət kəsb edir. Məhz bu zəruri tələbatı nəzərə alaraq müəlliflər həmin kitabçanı dəyərli oxucularımız üçün

hazırlamışlar. Kitabçada səfər anlayışı, səfərə çıxmanın qaydaları, səfər zamanı namaz qılınması, oruc tutulması və bir sıra digər məqamlar təfərrüatı ilə açıqlanmış, Quran ayələrinə və sevimli Peyğəmbərimizin ﷺ mötəbər hədislərinə əsaslanmaqla şərh edilmişdir. Bu kiçik həcmli əsərdən aydın göründüyü kimi, Allahın bəşəriyyətə nazil etdiyi son mükəmməl dini olan İslam doğrudan da asanlıq dini, insanı çətinliyə salmayan kamil İlahi dinidir. Onun tətbiqində heç bir ziddiyyət, uyğunsuzluq yoxdur. İbadətin fasiləsizliyi dində əsas şərtdir. Səfərdə də olsan Allaha borclu olduğun ibadətini yerinə yetirməyi unutma!

Qısa və ya uzunmüddətli səfərlərdə müsəlmanın yerinə yetirməli olduğu vacib əməllər barədə yazılmış bu kitabçanı faydalı və bərəkətli etməsi üçün Qüdrət və Əzəmət sahibi və şəriksiz olan Allaha həmd olsun!

# Mündəricat

Ön söz....................................................3
"Səfər" sözünün mənası ..........................7
Səfərə çıxma qaydaları ............................9
Səfərdə namaz qılınması.......................24
Səfərlə əlaqəli bəzi məsələlər.................39
Səfərdə oruc tutmaq ...............................50
Son söz....................................................53

# Qeydlər üçün